# Qəbələdə Milli Qurtuluş Günü qeyd olundu

***«Xalq mənə ümid bəsləyir. Mən də ümidi doğrultmaq üçün həyatımın qalan hissəsini xalqa bağışlamışam və ona qurban verməyə hazıram».***

**Heydər ƏLİYEV.**

İyun ayının 14-da Qəbələ şəhərində Milli Qurtuluş Günü təntənə ilə qeyd edildi. Şəhərin mərkəzi küçə və parkları, istirahət və əyləncə yerləri bayramsayağı bəzədilmişdi. Həmin gün şəhər mərkəzindəki Heydər Əliyevin adını daşıyan parka rayonumuzun qəsəbə və kəndlərindən gələn insanlar daha çox idi. Səhər saat 10-da bayram təntənələri rəsmi tədbirlə başlandı.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayonun idarə və təşkilatlarının rəhbərləri bayram şənliyinə gəldilər. Səbuhi Abdullayev şəhər parkında ümummilli liderimiz, xalqımızın dahi oğlu Heydər Əliyevin möhtəşəm abidəsi önünə tər çiçək dəstələri qoyaraq dünya şöhrətli şəxsiyyətə hörmət və ehtiramını bildirdi.

Rayonun digər rəhbər işçiləri, hüquq-mühafizə orqanlarının, ayrı-ayrı idarə və təşkilatların nümayəndələri tarixi bayramı, Milli Qurtuluş gününü qeyd etmək üçün dəstə-dəstə buraya gəldilər. Heydər Əliyevin abidəsi önünə çiçək dəstəlri düzərək böyük öndəri ehtiramla yad etdilər. Heydər Əliyev parkına toplaşanları rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev salamladı və Milli Qurtuluş Günü haqqında məruzə etdi. Məruzəçi 1993-cü ilin çətin günlərini yada saldı və ölkəmizin tarixinin ən parlaq səhifələrindən biri olduğunu göstərdi, ümummilli lider Heydər Əliyevin Böyük xilaskarlıq missiyasından dövlət və xalq qarşısındakı misilsiz xidmətlərindən danışdı.



Səbuhi Abdullayev 1993-cü ildə xaos və anarxiya şəraitində yaşayan, hər an parçalanmaq və məhv olmaq, yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycanın nicat yolunu müəyyənləşdirən Heydər Əliyevin tarixi rolundan soz açmışdır. Bildirmişdir ki, bütün mənalı ömrünü Vətəninə, dövlətinə həsr etmiş ümummilli liderimiz Heydər Əliyevin başlıca amalı Azərbaycanın inkişafı, güclənməsi, müasirləşməsi, xalqımızın rifahının yüksəlməsi olmuşdur. Azərbaycanda Milli Qurtuluş Günündən başlayan yüksəliş bu gün də böyük sürətlə davam edir.

Ölkəmizin iqtisadiyyatı güclənir, islahatların miqyası durmadan genişlənirdi. Əsası Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası, onun Azərbaycanı regionun liderinə çevirmək siyasəti artıq reallığa çevrilmişdir. Ölkəmizin iqtisadi qudrəti artır, siması yeniləşir, dünyada mövqeləri gündən-günə möhkəmlənir. Artıq sürətli sosial-iqtisadi inkişafın Azərbaycan modeli beynəlxalq miqyasda özünü təsdiq etmişdir. Bu gün Azərbaycanın demokratik imici getdikcə artır, insan haqlarının təminatı güclənir. Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi 1993-cü ilin may-iyun aylarının ən ağır günlərində ulu öndər Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatını, qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı qəlbinin hökmü ilə öz üzərinə götürməsi idi. «Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» deyib meydana atılan geniş ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.



Son 20 ildə Azərbaycanın iqtisadiyyatında, təhsilində, mədəniyyətində ölkədə söz, mətbuat azadlığının təşəkkül tapdığını, Azərbaycan mətbuatının inkişafına daim böyük önəm verdiyini və digər sahələrdə mühüm nailiyyətlər əldə olunduğunu qeyd edən Səbuhi Abdullayev bütün bu nailiyyətlərin ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulamışdır.

Natiq çıxışında böyük siyasi xadim Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi quruculuq işlərindən və apardığı xarici siyasətdən ölkədə aparılan islahatlara yaradılan şəraitdən, Azərbaycanı dünyaya tanıtmasından danışdı və bildirdi ki, ona görə də Azərbaycan xalqı öz xəlaskarını sevir və onun ruhu qarşısında baş əyir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqının qəlbində özünə möhtəşəm və əbədi abidə ucaltdığını diqqətə çatdıran natiq dahi rəhbərimizin nurlu ideyalarının daim yaşayacağını söyləmişdir.

Səbuhi Abdullayev çıxışının sonunda qeyd etdi ki, dahi öndərin əsasını qoyduğu ideyalar bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan xalqı onun rəhbərliyi altında xoşbəxt gələcəyə doğru qətiyyətlə addımlayır.

Sonra rayon mədəniyyət evinin musiqiçiləri geniş proqramla konsert verdilər, xalq mahnıları, muğamlar səsləndirildi. Bayram şənlikləri xeyli müddət davam etdi.

**Aslan CƏLİLOV.**

**Fotolar S. Umuyevindir.**

# Bakıda keçirilən Ombudsmanların XI Beynəlxalq konfransının iştirakçıları Qəbələdə

İyun ayının 18—19-da Bakıda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili aparatının və UNESCO-nun birgə dəstəyi ilə ombudsmanların XI Beynəlxalq konfransı keçirilmişdir. 18 iyun—İnsan Hüquqları Günü və BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 65 illiyi münasibətilə keçirilən tədbir «Davamlı inkişaf strategiyalarının yeni mexanizmlərinin insan hüquqlarının təbliğində və müdafiəsində rolu» mövzusuna həsr olunmuşdur.





Konfransda Avropa, Asiya və Amerika qitələrinin 10-dan artıq ölkəsindən, o cümlədən Kanada, Türkiyə, Niderland, Bolqarıstan, Pakistan, Rusiya Federasiyası və digər ölkələrdən nümayəndələr iştirak edirdilər.

Konfransın birinci günü insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova və qonaqlar müzakirə olunan məsələlərin əhəmiyyəti barədə danışmışlar.

Konfransın ikinci günü qloballaşan dünyada inkişaf strategiyası ilə bağlı müxtəlif mövzularda sessiyalar keçirilmişdir. Konfransda Bakı Bəyannaməsi qəbul olunmuşdur.

İyun ayının 20-də konfrans iştirakçıları Qəbələyə gəlmişlər. Qonaqları rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılamışdır. O, ötən qısa bir zaman kəsiyində rayonda gedən güclü sosial-iqtisadi inkişafla və əhalinin həyat tərzində yaranan dönüşlə bağlı qonaqlara ətraflı məlumat vermişdir. Sonra qonaqlar rayonun istehsal müəssisələri, Qəbələdə turizmin inkişafı ilə bağlı işlərlə, habelə rayonun gəzməli, görməli yerləri ilə tanış edilmişlər.

**Nadir ATAKİŞİYEV.**

**Fotolar S. Umuyevindir.**